Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Vaxtdan yüksəkdə dayanan qələm adamı - Rafael Hüseynov

**Rafael Hüseynovun 65 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2020**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Lalə Qəmbərova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Vaxtdan yüksəkdə dayanan qələm adamı – Rafael Hüseynov:** Rafael Hüseynovun 65 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. Ə. Aynurə; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. L. Qəmbərova. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. – 24 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

Həyata hamı bir cür gəlir. Bu yolun başlanğıcı eyni olsa da, gedişi müxtəlifdir. Həyatı hərə bir cür yaşayır. Dünyada hərənin özünə görə bir yolu və bu yolun enişi-yoxuşu, sevinci-kədəri, acısı-şirini olur. İnsanlar bir-birinə bənzəmədiyi kimi onların tale yolları da bənzərsiz olur. Hərə öz ulduzunun işığına düşür, baş alıb gedir, sonu görünməyən, vaxtı bilinməyən həyat yolunu pillə-pillə keçməyə başlayır. Tarixə düşüb, öz dəsti-xətti ilə iz qoyan da olur, olmayan da. Xoşbəxt o insandır ki, tale yolunun kələ-kötürünə baxmayaraq nəcib niyyətlərdən, gözəl amallardan əl çəkmir, vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirməyə çalışır, adı-əməli sonrakı nəsillər üçün sönməz ulduza, milli iftixara çevrilir, gələcək nəsillərə ərməğan olur. Bu minvalla özünə tale yolu seçib ədəbiyyat tariximizə öz izini - Rafael imzasını həkk etdirən yaradıcı şəxsiyyətlərdən biri də azərbaycanlı ədəbiyyatşünas, ictimai xadim, yazıçı, publisist, tərcüməçi, mətnşünas, Rafael Hüseynovdur.

Hüseynov Rafael Baba oğlu 12 avqust 1955-ci ildə Kürdəmir rayonunda anadan olmuşdur. Ədibin 65-illik yubileyi münasibəti ilə yazılmış bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə “İftixar və ümid zərrələri- Rafael Hüseynov ” adlanır və yazıçının həyatından bəhs edir. II hissədə isə onun yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## *Haqqında*

1955-ci il avqustun 12-də Kürdəmir şəhərində anadan olmuşdur. 1971-ci ildə burada 2 saylı şəhər orta məktəbini bitirmişdir.1971-1976-cı illərdə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində fars filologiyası ixtisası üzrə təhsil almışdır.1976-1978-ci illərdə əmək fəaliyyətinə təyinatla göndərildiyi Azərbaycan Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun fəlsəfə tarixi şöbəsində başlamışdır.1978-1982-ci illər Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun İran filologiyası şöbəsində kiçik elmi işçi, 1982-1988-ci illərdə isə həmin institutun Orta əsrlər şərq yazılı mənbələrinin tədqiqi və nəşri şöbəsində baş elmi işçi vəzifəsində çalışmışdır. 1980-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir.

Nizami adına Ədəbiyyat muzeyində şöbə müdiri işləmişdir. Hazırda muzeyin direktorudur.

Ədəbi fəaliyyətə 1975-ci ildə Kürdəmir rayonunda çıxan "İrəli" qəzeti səhifələrində dərc olunan şeirləri ilə başlamışdır. Dövri mətbuatda vaxtaşırı çıxış etmişdir.

Azərbaycan xalq musiqisi və onun görkəmli ifaçıları haqqında hazırladığı "Nəğməli ömürlər" və "Axşam görüşləri" adlı həftəlik verilişlər silsiləsi efırdə səslənmişdir.

"Qobustan" incəsənət toplusunda "Görməyən gözlərin aydınlığı", "Əsas odur ki, xalq sizi sevir", "Həsrət qatarı" və s. publisistik yazıları çap olunmuşdur.

Orta əsrlər fars və türkdilli poeziyanın müxtəlif problemlərinə həsr edilmiş 30-dan artıq ədəbiyyatşünaslıq əsərinin müəllifidir. 1992-ci ildə "Baba Tahir Üryan və onun poetik irsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1987-ci ildə Məhsəti Gəncəvinin rübailərini, Rəsul Rza və Nigar Rəfibəyli haqqında "İki ömrün işığı" adlı xatirələr kitabını

tərtib etmişdir.1987-1989-ci illərdə ADU-da "fars ədəbbiyyatı", 1990-1991-ci illərdə Konservatoriyada "Mədəniyyət tarixi", "Xəzər" Universitetində "Azərbaycan ədəbiyyatı" və 1995-ci ildə "Azərbaycan mədəniyyəti" fənlərindən dərs demişdir.

1995-1998 - ci illərdə Xəzər Universitetində "Azərbaycan filologiyası və şərqşünaslıq" kafedrasının müdiri vəzifəsində çalışmışdır.

## *Əsərləri*

Vaxtdan uca. Bakı: İşıq, 1987, 363 səh.
1002-ci gecə. Bakı: İşıq, 1988, 408 səh.
Məhsəti necə varsa. Bakı: Yazıçı, 1989, 336 səh.
Millətin zərrəsi. Bakı, "Azərbaycan", 2001
Məhsəti Gəncəvi - özü, sözü, izi. Bakı, "Nurlan", 2005
Əbədi Cavid. Bakı, "Nurlan", 2007
Cavidlər. Tehran: Dorsa, 2009.- 288 s.
Söz məbədi. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi. Bakı, "Araz", 2009
Госпожа Луна – Мехсети Гянджеви. Баку, "Элм", 2010
Yurdun adındakı can. Bakı, Elm, 2010
Hamısı ulduz. Musiqi tariximizin səhifələri. Bakı, "Elm və Təhsil", 2012
Söz heykəli. Bakı, "Elm və Təhsil", 2012
İmzamız. Sənət düşüncələri. Bakı, "Elm və Təhsil", 2012
Şirvan şairləri. Bakı, "Elm və Təhsil", 2012
Söz tək gözəl. Məhsəti haqqında monoqrafiya. Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2013
Царица державы рубаи. Məhsəti haqqında monoqrafiya. Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2013

Məhsəti Gəncəvi. Portret-oçerk. (21 dildə kitab - Azərbaycan, Azərbaycan dilində ərəb əlifbası ilə, rus, ingilis, türk, fransız, alman, italyan, ispan, tacik, fars, ərəb, koreya, yapon, indoneziya, norveç, yunan, hind, polyak, çex, ivrit, urdu dillərində). Bakı, "Şərq-Qərb", 2013
Sözün meracı (Azərbaycan ədəbiyyatının klassikləri haqqında). Bakı, 2014 "Elm və təhsil" (Rus dilində)
Filmoqrafiya
Ocaq başı (film, 1990)
Qayıdış (film, 1992)
Cavid ömrü (film, 2007)
Əbədiyyət (veriliş, 2007)
Ömrün rəngləri. Xalq rəssamı Oqtay Sadıqzadə (film, 2007)
Maestro Niyazi (film, 2007)
Rəfibəylilər (film, 2009)
Tərcümələri
(farscadan)

## *Pedaqoji fəaliyyəti*

Azərbaycan Dövlət Universitetində (indiki BDU) "İran ədəbiyyatı tarixi" müəllimi (1987-1989), Musiqi Akademiyasında "Mədəniyyət tarixi" fənnindən dərs demiş, "Azərbaycan ədəbiyyatı və mədəniyyəti" kafedrasının müdiri olmuşdur (1990-1991). "Xəzər" Universitetində "Azərbaycan ədəbiyyatı" və "Azərbaycan mədəniyyəti" fənlərindən dərs demişdir (1995-1999). Bakıda Amerika Universitetində Azərbaycan, Şərq ədəbiyyatı və Azərbaycan mədəniyyəti fənlərindən dərs demiş, "Azərbaycanşünaslıq" kafedrasının müdiri olmuşdur (1999-2001). Bakıda 6 saylı məktəbdə ibtidai sinif müəllimi (2001-2002), Azərbaycan Dövlət Pedaqoji Universitetində "Azərbaycan və türk xalqları ədəbiyyatı

tarixi"ndən dərs demişdir. "Qədim ədəbiyyat və folklor" kafedrasının professoru kimi fəaliyyətini davam etdirir (2008-2014).

Digər fəaliyyətləri: 2001-ci ildən Azərbaycan Milli Məclisinin üzvü; 2001-ci ildən AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü; 1975-ci ildən Azərbaycan radiosunda həftəlik, bir saatlıq efirə çıxan, ədəbiyyat və mədəniyyətə aid proqramın daimi müəllifi.

## *Təltif və mükafatları*

"Cavidlər" əsərinə görə Azərbaycan Respublikası Elmlər Akademiyasının, Yazıçılar Birliyinin, Azərbaycan Universiteti -nin xüsusi mükafatına layiq görülmüşdür ( 1997), Əməkdar incəsənət adamı ( 2005), "Elmdə ad" Beynəlxalq mükafat (2014).

## *Yubiley tədbirlərinin keçirilməsi*

Tanınmış ədib, nasir, yazıçı, ədəbiyyatşünas, ictimai xadim, publisist, tərcüməçi, mətnşünas, Rafael Hüseynovun anadan olmasının 65 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm müsabiqəsi, icmal, dəyirmi masa, ədəbi-bədii gecə və s. keçirilə bilər. Yazıçını sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Təkrarsız qələm sahibi-Rafael Hüseynov", "Tale yolları", "Vaxtdan yüksəkdə dayanan qələm adamı- Rafael Hüseynov", "Rafael Hüseynov- ədəbiyyatşünas", "Məhsəti Gəncəvi-özü, sözü, izi", "Söztək gözəl".

***Kitab sərgisi***















Rafael Hüseynovun yubileyi ilə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də *"Ulduzlar sönmür"* adlı **"Biblioqrafik icmal"** dır. Bunun üçün ədibin kitablarından ibarət olunan sərgi təşkil olunur. Kitabxanaçı biblioqrafik icmal keçirərkən oxuculara ədibin kitabları, eləcə də "Məhsətilər necə varsa" adlı kitabı haqqında məlumat verir.

***Kitabxanaçı:*** Sərgidə yer alan kitablardan biri ədibin **"Söztək gözəl"** kitabıdır. Böyük Azərbaycan şairi Məhsəti Gəncəvi yalnız mənsub olduğu xalqın deyil, dünya ədəbiyyatı və mədəniyyətinin ən nadir simalarındandır. İstər yaşayıb yaratdığı XII əsrdə, istərsə də vəfatından ötən səkkiz əsrdən artıq zamanda nə Şərq, nə Qərb ədəbiyyatında miqyasları, çoxcəhətliyi, sonrakı ədəbi prosesə təsiri, qaldırdığı məsələlərin əhatə dairəsi və kəskinliyi baxımından ona tay ola biləcək ikinci qadın söz ustası görünmür. O, yalnız Azərbaycan poeziyasında yox, bütövlükdə dünya ədəbiyyatında qadının mənəvi azadlığı problemini bütün dolğunluğu ilə söz sənətinə gətirmiş ilk yaradıcıdır. Kiçik poetik formalardan olan rübaidə xüsusi məharət göstərən Məhsəti bu istiqamətdə Yaxın və Orta Şərq xalqları ədəbiyyatında dahi İran mütəfəkkiri Ömər Xəyyamla yanaşı ən birincilərdən sayılmışdır.

Monoqrafiyada zəngin əlyazma materialları, ilk mənbələr, müxtəlif dünya dillərində olan tədqiqat əsərlərinin təməlində Məhsəti Gəncəvinin həyat və yaradıcılığı bütün yönləriylə təhlil edilir, onun Azərbaycan və dünya ədəbiyyatı və mədəniyyətindəki üstün yeri müəyyənləşdirilir. Əsərdə məhsətişünaslığın perspektivləri cızılır, mülahizələr irəli sürülür.

Kitab şərqşünaslar və azərbaycanşünas alimlər, filoloqlar və və geniş oxucu kütlələri üçün nəzərdə tutulmuşdur.

Sərgidə yer alan kitablardan digəri ədibin **“Vaxtdan uca”** kitabıdır. Bu kitabın qəhrəmanları - Müslüm Maqomayev, Hüseyn Cavid və Ərtoğrul Cavid istedadlarıyla, sənətə sonsuz sevgiləri ilə, solmaz yadigarları ilə dünənin, bu günün və sabahıdırlar. Yaşadığı illərə sığmayan bu sənətkarlar hər gələn nəsillə müasir olacaq və həmişə də zəmanəyə vaxtın fövqündən baxacaqlar. Bu işıqlı ömürlərin ölümsüzlük sahilləri hamımıza bəllidir. Ancaq həmin ölümsüzlüyün o tayında onların ümidli, arzulu, mübarizəli, sevincli, nisgilli gerçək həyatları dayanır. Kitabdakı düşüncələrdə bu unudulmaz insanların ömür yolunun zəngin və maraqlı səhifələri vərəqlənir.

Sərgidə yer alan kitablardan digəri ədibin **“Məhsəti Gəncəvi-özü, sözü, izi”** kitabıdır.

Qaynaqlar şahidlik edir ki, Məhsəti 90 ildən artıq ömür sürüb. Azərbaycan uzunömürlər diyarıdır. Yaşı 90-ı haqlayanlarımız, 100-ü ötənlərimiz yüzlərlədir. Amma Azərbaycanda yaşı 900-ə çatan və canlı olan bircə qadın var. Sözü XII yüzillikdəki kimi bu gün də təravətli olan Məhsəti Gəncəvi. XXI əsrin yüksəkliyindən görünən böyük həqiqət odur ki, bu gün dünyaya meydan oxuyan heç bir xalqın o əsərdə Məhsəti böyüklükdə şairəsi olmayıb. Millətinə bağışladığı bu əbədi birincilik və o birinciliyin gətirdiyi milli iftixar duyğusu Gəncəli Məhsətini həmişə gənc edəcək!

Yazıçının oxuculara təqdim olunan digər kitabı **“Söztək gözəl”** kitabıdır. Kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Məhsəti Gəncəvinin 900 illik yubileyinin keçirilməsi haqqında 16 yanvar 2013-cü il Sərəncamına əsasən nəşr edilmişdir.

Rafael Hüseynov. Söztək gözəl. Məhsəti.Monoqrafiya. Bakı, “Şərq-Qərb” Nəşriyyat Evi, 2013.-560 səh.

Böyük Azərbaycan şair Məhsəti Gəncəvi yalnız mənsub olduğu xalqın deyil, dünya ədəbiyyatı və mədəniyyətinin ən nadir simalarındandır. İstər yaşayıb yaratdığı XII əsrdə, istərsə də vəfatından ötən səkkiz əsrdən artıq zamanda nə Şərq, nə Qərb ədəbiyyatında miqyasları, çoxcəhətliliyi, sonrakı ədəbi prosesə təsiri, qaldırdığı məsələlərin əhatə dairəsi və kəskinliyi baxımından ona tay ola biləcək ikinci qadın söz ustası görünmür. O, yalnız Azərbaycan poeziyasında yox, bütövlükdə dünya ədəbiyyatında qadın mənəvi azadlığı problemini bütün dolğunluğu ilə söz sənətinə gətirmiş ilk yaradıcıdır. Kiçik poetik formalardan olan rübaidə xüsusi məharət göstərən Məhsəti bu istiqamətdə Yaxın və Orta Şərq xalqları ədəbiyyatında dahi İran mütəfəkkiri Ömər Xəyyamla yanaşı ən birincilərdən sayılmışdır.

Monoqrafiyada zəngin əlyazma və arxiv materialları, ilk mənbələr, müxtəlif dünya dillərində olan tədqiqat əsərlərinin təməlində Məhsəti Gəncəvinin həyat və yaradıcılığı bütün yönləriylə təhlil edilir, onun Azərbaycan və dünya ədəbiyyatı və mədəniyyətindəki üstün yeri müəyyənləşdirilir. Əsərdə məhsətişünaslığın perspektivləri cızılır, mütəfəkkir şairlərin Azərbaycan və dünya təqdiminin daha geniş üfüqləri haqqında mülahizələr irəli sürülür.

Yazıçının oxuculara təqdim olunan digər kitabı **“Məhsəti Gəncəvi – özü, sözü, izi”** kitabıdır. Rəfael Hüseynov. Məhsəti Gəncəvi – özü, sözü, izi. Bakı, “Nurlan”, 2005. – 560 səh.,

Azərbaycan ədəbiyyatı tarixinin ən cazibəli ustadlarından biri Məhsəti Gəncəvi XII yüzildə qələm çaldı. Gəncənin intibah havalı münbit ədəbi mühitində solmaz rübailər yaradan Məhsəti həm də mahir musiqiçi və usta şahmatçı idi. Musiqi zərifliyi Məhsətinin rübailərinə çökübsə, şahmat mürəkkəbliyi onun taleyindən keçib. Vaxtın sərt külələri Məhsətinin şeirlərini və bir ömür yolu haqqında bilikləri ən müxtəlif əlyazmalarının səhifələrində ölkə-ölkə, şəhər-şəhər yayıb. Böyük şairlərin

həyatı və ədəbi yadigarlarından bəhs edən bu kitabda orta əsr Şərq qaynaqlarındakı soraqların əsasında Məhsəti Gəncəvinin özü, sözü, izi barədə bir çox qaranlıq suallara cavablar axtarılır. Ədibin sərgidə yer alan növbəti kitablarından biri də **“Məhsəti-necə varsa”** B.: Yazıçı, 1989, 336 s. kitabıdır.

Söz tariximizin ən cazibəli ustadlarından biri Məhsəti Gəncəvi XII yüzildə qələm çaldı. Gəncəvinin intibah havalı ədəbi mühitində solmaz rübailər yaradan Məhsəti həm də gözəl musiqiçi və şahmatçı idi.

İstedadlı yazar Rafael Hüseynovun 65-illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri *“Rafael Hüseynov dünyası”* adlı **dəyirmi masa** ola bilər. Tədbir oxucuların iştirakı ilə kitabxanada keçirilir. İlk olararaq kitabxanaçı səhnəyə çıxıb qonaqları salamlayır və sonra Rafael Hüseynovun yaradıcılığı haqqında qısa məlumat verir.

***Kitabxanaçı:*** Rafael Hüseynov orta əsrlər fars və türkdilli poeziyanın müxtəlif problemlərinə həsr edilmiş tədqiqatların müəllifidir. Məhsəti Gəncəvinin rübailərini tərtib etmiş, H.Cavid, R.Rza və N.Rəfibəyli haqqında xatirələr kitabını yazmışdır.

Akademik Rafael Hüseynov görkəmli ədəbiyyatşünas,ictimai xadim, yazıçı, publisist, tərcüməçi, mətnşünas, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, millət vəkili, Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, filologiya elmləri doktoru, akademikdir...

Rafael Hüseynov sözün zirvəsinə, ucalığına klassika ilə gəlib. Ədəbiyyat və mədəniyyətimizin klassikası ilə. Burada elmin gücü, publisistikanın hökmü vəhdətdə olub. Ədəbiyyat tarixçiliyini nəzəriyyəçilik və tənqidçilik tamamlayıb. Bəli, Rafael Hüseynovun bədii publisistik təhkiyəsi elmin filologiyasını, psixologiyasını, etikasını və fəlsəfəsini özünə qapsayıb. Ən əsası estetikasını!...

Tədqiqatçı-alim sözün meydanına Şirvan şairlərindən gəlib. Sonra Məhsəti, Nizami, Nəsimi, Füzuli, Vaqif, Mirzə Fətəli Axundzadə, Sabir, Mirzə Cəlil, Hüseyn Cavid, Səməd Vurğun sırası gəlib. Və insan ruhunun müqəddəs yazıları olan kitab heykəllər yaranıb... Rafael Hüseynov ömrün zirvəsinə neçə-neçə kitab-heykəllərlə ucalıb...

Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi *"Rafael Hüseynov baxışı"* adlı **kitab müzakirəsi** də keçirilə bilər. Oxucuların istəyini nəzərə alan kitabxanaçı oxucularla birgə Rafael Hüseynovun bir neçə kitabını və eləcə də "Məhsəti Gəncəvi – özü, sözü, izi" adlı kitabını və eyni zamanda Rafael Hüseynov haqqında yazılmış müxtəlif adda kitabları müzakirə edə bilər:

*Kitabxanaçı:* Sözü XII əsrin yüksəkliyindən görünən böyük həqiqət odur ki, bu gün dünyaya meydan oxuyan heç bir xalqın o əsrdə Məhsəti böyüklüyündə şairəsi olmayıb. Millətinə bağışladığı bu ədəbi birincilik və o birinciliyin gətirdiyi milli iftixar duyğusu Gəncəli Məhsətini həmişə gənc edəcək.

*Kitabxanaçının çıxışından sonra iştirakçılar öz çıxışları ilə qonaqları məlumatlandırır.*

***I İştirakçı** kitabda yer almış sözlərlə - Rafael Hüseynovun öz fikirlərini söyləməklə çıxışına keçid alır:*

Azərbaycanın paytaxtında, Bakıda Məhsəti Gəncəvinin heykəli yoxdur. Ancaq ölməz sənəti ilə Məhsəti bütöv Azərbaycanda özünə yaşarı abidə ucaldıb. Bakıda Məhsəti Gəncəvi xiyabanı yoxdur. Ancaq rübailərindən başlayıb oxucuların ürəklərindən keçən bütün yolların hamısı Məhsəti Gəncəvinin adını daşıyır. Məhsəti Gəncəvi haqqında film yoxdur. Ancaq şeirlərini oxuduqca Məhsətinin ömrü-günü, sevdiyi və sevmədiyi qəhrəmanları da sıra-sıra gözlərimiz önündə canlanır. Məhsəti öz payına düşənləri səkkiz yüz il bundan irəli yanar düşüncəsi və mübariz qələmi ilə kişi kimi

yerinə yetirib. Qalır bizim payımıza düşənlər!" Hər şey olduğu kimi qalır.

***II İştirakçı:*** Nə vaxtsa Məhsətiyə və Məhsəti kimi sevgili vətən yavrularına qaytarmalı olduğumuz çox borcların heç olmazsa, bir qismini yerinə yetirəndə bəlkə də göydən nağıllardakı kimi üç alma yox, tövbələrimizin əfvi olaraq səmada dolaşa-dolaşa yerə həsrət qalmış daşlardan biri qopub düşər torpağın üstünə. O daş yerə düşüncə yanında bir əlçim ot göyərəcək, dibində bir xırdaca gül bitəcək və o gül zərif ləçəkləri ilə hey qayıdıb özümüzə dəyməkdən bezar olmuş, həmin daşın canındakı ağrılar çıxsın deyə onu nəvazişlə oxşayacaq, çopur, qara üzünü məhrəm-məhrəm sığallayacaq.

Qapqara, çopur- çopur bir daşın dibindən boy atmış bir zərif çiçək görəndə onu Məhsəti bilin, Nəsimi bilin, Mirzə Fətəli bilin, Mirzə Cəlil bilin, Müşfiq bilin, Cavid bilin, Cavad bilin, Anar bilin...

Bəs o üzü qara Vətən daşının adı nə olacaq?!

***III İştirakçı:*** Parlaq şəxsiyyətləri ulduzlara ilk bənzədən çox haqlıymış. Sönmüş ulduzların işığı yüzillər, minillər boyu insanlara çatmaqda davam edir. Məhsəti kimi ulduzların da işığının bizlərə gələn yolu alışdığımız ağ təqvimlərlə, saatlarla deyil, işıq illəri ilə ölçülə bilər.

Təsəvvürümüzə sığmayacaq qədər nəhəng zamanlar qədər, nəhəng zamanlar boyu Məhsətinin adı və şeirləri illərimizi aydınlaşdıracaq, köhnəlməyən gerçəkliklə köhnə dünyaya hayan olacaq.

Keçmişin, indinin və gələcəyin şairi, gözəl Məhsətimiz bu müqəddəs torpaqda yaşadı, ölməz saxlanclarını bu torpağın üstündə yaratdı, son beşiyini bu topağın qoynunda tapdı. Ötkəm şəxsiyyətli, üstün ağlı, sərhədsiz duyğular dünyasıyla vəhdətdə olan qələminin bəhrələrini xalqına ədəbi miras edən Məhsətinin millətinə və məmləkətinə bir ali xidməti də oldu. Adının yanında

Gəncə sözü həmişə yaşadı. Vaxtın qasırğaları Gəncəni Abbasabad etdi. Məhsəti dönüb Abbasabadı olmadı. Gəncəni çevirib Yelizavetpol etdilər. Məhsəti Yelizavetpolskaya olmadı. Gəncəni Kirovabada dəyişdilər. Məhsəti dönüb Kirovabadi olmadı. Məhsəti uca varlığı ilə, yaşarı irsi ilə adının yanındakı Vətəni hər zaman qorudu. Kim deyər ki, Məhsəti XII əsrdən sonrakı əsrlərdə diri olmayıb, mübarizə aparmayıb?!

Amma bu gün Gəncəli Məhsəti nə tək Gəncənin, nə tək Azərbaycanındır. Bu yaşa çatandan sonra o, bəşəriyyətin şairləri sırasında, dünya vətəndaşları cərgəsindədir. Xalqa ərməğan etdiyi bu qürura görə ruhu şad olsun!

Rafael Hüseynovun yubileyi ilə əlaqədar keçirilə biləcək maraqlı tədbirlərdən biri də ədəbi-bədii gecədir. Bu münasibətlə kitabxanada *"Azərbaycan ədəbiyyatşünaslığında sözü olan ədib- Rafael Hüseynov"* adlı **ədəbi-bədii** gecə keçirilir. Tədbirə Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, sənət-söz adamları, oxucular, məktəblilər və ümumilikdə ədəbiyyatsevərlər toplaşır. Qonaqlar ədibin öz şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini tuturlar.

***I aparıcı:*** Məhsətiyəm, oldum gözəllərə tağ,
Hüsnümü vəsf edir Xorasan, İraq.
Gəncə xətibinin oğlu, qıyma ki,
Yandırsın beləcə könlümü fəraq.

Xoşbəxt ruzigarım əlimdən getdi,
Çünki zülfi-yarım əlimdən getdi.
Ələ xına yaxdım, yarımdan ötrü,
Uyudum, nigarım əlimdən getdi.

Ey sarvan, səfərə vermisən qərar,
Məni qoyub getmə, üzgün canım var.
Sənin dəvələrin adi yük çəkir,
Qəm yükü çəkirəm, məni də apar.

***M.Gəncəvi***

***II aparıcı:*** Ağıllı kitab hökmən oxucusunu qərq edir, onun maraqlı müsahibinə çevrilir. Rafael Hüseynovun kitablarını mütailə edərkən həyəcanlanırsan, kövrəlirsən, kitab qəhrəmanları ilə birlikdə fərəhli saatları, acı günləri yaşayırsan, sevinirsən, dərdlənirsən, bəzən də yanıb-yanıb yaxılırsan, Ancaq bütün bu hissləri keçirə-keçirə ən çox fikrə dalırsan. Vaxt haqqında, vaxtın içində ömür sürən insan haqqında düşünürsən. "Görəsən kimin bəxtinə nə çıxacaq" ifadəsini ara-sıra işlədirdik. İnsanın bəxtinə çıxan ən önəmli, vacib şey-vaxtdır. Çox şey insanın özündən asılıdır. Amma mühümdən-mühüm, vacibdən-vacib üç şey insanın özündən asılı deyil: valideynləri, daha geniş götürsək-soyu, kökü, milləti-bu bir. Vətəni, doğulduğu, üstündə boya-başa çatdığı torpaq, el-oba,-bu iki. Yaşadığı, ömür sürdüyü vaxt, bu da üç... bu gün bizim üçün tarix olanlar, o vaxt onlar üçün tale idi, bəxtlərinə çıxmış vaxt idi...

*Aparıcının çıxışından sonra məktəblilər Rafael Hüseynovun "Vaxtdan uca" kitabından müxtəlif bölmələri səhnələşdirirlər.*

*İlk öncə səhnə əsərə uyğun olaraq dekorasiya edilir. İştirakçılar canlandırdıqları obrazların paltarlarına uyğun geyinirlər. Səhnədə bir neçə iştirakçı görünməyə başlayır. Aparıcı səhnəyə yaxınlaşaraq sözə başlayır:*

*Aparıcı:* Qalmışam məndə zərrə səbrü-qərar,
Mənə Sənansız olmuş aləm tar.
Altı ildir ki, zarü dərbədərim,
Həp onundur məsərrətim, kədərim.
Altı ildir əsirü mədhuşəm...

*I iştirakçı:* Danışdıqca xışıltılı-xışıltılı öskürürdü Ərtoğrul. O, hər öskürəndə elə bil yüzlərlə iynə sancılırdı, Müşkinazın ciyərlərlərinə.
*II iştirakçı:* -Ana, Baba Keşlədə görüşəndə sizi mənə tapşırdı. Mən kimə?
*I iştirakçı:* Müşkinaz nəsə demək istədi, dili dönmədi. Gücü ona çatdı ki, əliylə Ərtoğrulun ağzını tutdu:
*III iştirakçı:* - O nə sözdü?
*II iştirakçı:* Arzu etmədiyim sözdü...
*I iştirakçı:* (Müşkinaz çıxdı palatadan, ayrıldı Ərtoğruldan, keçib durdu Cavidlə üz-üzə:
*III iştirakçı:* "Polad ürək gərəkdir ki, bu dərdə dözsün, Cavid. Bu nisgilli sözləri, dumanlı ahları, ürəyimin qəmli döyüntüsünü eşidirsənmi?"
*I iştirakçı:* Cavab vermirdi Cavid. (amma çox sonralar Müşkinaz anlayacaq ki, Cavid onun bu sorğusuna çox əvvəllər cavab veribmiş:

Allah, nə bədbaxt ana oldum... Eyvah!
Həsrəti könlündə can verən övlad!)

"Sənin dərdin daha ağırdı, Cavidim. Dilbilməz, qədirbilməz önündəsən" ) ...
***I aparıcı:*** R.Hüseynov eyni zamanda muzey yaradıcısıdır, elmi-təşkilati rəhbərdir, qurucudur. Ədəbiyyat Muzeyinin

yenidən təşkilatlanması, zənginləşdirilməsində böyük zəhmətkeşdir...

Kitablar yaddaş, saxlancdır, gəzəri heykəllərdir. Necə ki, Rafael müəllim kitablarına sanki heykəl vüsəti verir. Ağırçəkili, şəkilli və möhtəşəm kitablar yazır, sərmayə xərcləyir... Tərtibatlı, nəfisli, naxışlı. Səsli, sözlü, rəngli. "Yerin altından qayıtmış gözəllik" kitab-heykəli 2009-cu ilin nəşri olub, Ədəbiyyat muzeyinin arxeoloji nümunələri haqqındadır. 328 səhifəlik!.. Elə buradaca... Rafael Hüseynov milli-mənəvi irsi (yeraltı, yerüstü) xüsusi adlarda, toplularda saxlanc edir, bu günə, gələcəyin yaddaşına ötürür. Miras kimi! Adlar da tarixin nəfəsindən nəfər gətirir: "Risalə", "Şərq", "Xəzinə", "Məclis", "Qaynaq"... "Risalə" – araşdırmalar, "Şərq" –tərcümələr, "Xəzinə" – kataloqlar, "Məclis – dini mərasimlər, ildönümlər, görüşlər, "Qaynaq" isə – daşyazmalar, əlyazmalar, səsyazmalar toplusudur. Toplulardır.... Klassikanın, tarixi keçmişin yaddaşı...

Elə bu kitabın da səsi "Qaynaq"dan, daşyazmalardan gəlir. Kitabda arxeologiya nümunələri verilib. Gəncədən, Naxçıvandan, Şabrandan, Bərdədən, Beyləqandan – mədəniyyət mərkəzlərindən tapılıb. Maddi-mədəniyyət nümunələrinin tapıldığı orta əsrlər Azərbaycan şəhərlərindən. Kitabda arxeoloji nümunələrin rəngli fotoları, müfəssəl elmi təfsirləri, təhlilləri də verilib...

***II aparıcı:*** Rafael Hüseynov "Cavidlər"i 2009-cu ildə ərəb əlifbası ilə Kərim Məşrutəçi Sönməzin timsalında Tehranda (1388, 2009), "Dosa" nəşriyyatında nəşr etdirib.

Cəmiyyətşünas-alimin "Yurdun adındakı can" (Bakı, "Elm", 2010, 904 s.) kitabının ad və titulunda "Azərbaycan" sözü gizlənib. Bu, ürəyimizin, ruhumuzun riqqətidir!

Kitabın redaktoru professor Cəmil Həsənli və dosent Lətif Kərimlidir (Rəfibəyli). Kitab görkəmli Rəfibəylilər: Ələkbər

bəy Rəfibəyli və Xudadat bəy Rəfibəylilər haqqındadır. Daha burada təfsilat vermirik.

Alim “İki xalqın övladı” kitabını xalqımızın milli qəhrəmanı Mehdi Hüseynzadəyə həsr edib (Bakı, 2011), onu Azərbaycan və italyan xalqlarının övladı – qəhrəmanı kimi təqdim edib. R.Hüseynov Məhsəti Gəncəvini 1914-cü ildə fransız dilində, "Rübaidən rübaiəyə” (Bakı, Elm və təhsil”, 2012, 208 s.) kitabını 2012-ci ildə toplanması, ön sözü və şərhləri ilə birlikdə nəşr etdirib. Rus dilində “Qospoja Luna – Mexseti Qyandjevi” (Bakı, 2010, “Elm”, 608 s.) 2013-cü ildə yenə rus dilində, Tsapitsa derjovı rübai. Mexseti Qyandjevi” (Bakı, “Şərq-Qərb”, 2013, 640 s.). Hər biri şəkilli, rəngli, həcmli...

Xalq yazıçısı Anarın “Rəsul Rza, Sabir sağ olsaydı”, “Molla Nəsrəddin – dünən, bu gün” (Nurlan, 2011, 520 s.) nəşrinin “Dördü də sağ” adlı ön sözünün müəllifi Rafael Hüseynovdur.

Rafael müəllim "Şirvan şairləri” kitabında (Bakı, “Elm və təhsil”, 2012, 108 s.) Şirvan torpağından çıxmış, Şirvan ədəbi məktəbinin ənənələrini davam etdirmiş söz ustadları: Xaqani Şirvani, Zülfüqar Şirvani, İmadəddin Nəsimi, Zeynalabdin Şirvani, Seyid Əzim Şirvani və Mirzə Ələkbər Sabir irsindən bəhs edib.

Alimin "İmzamız. Sənət düşüncələri” kitabı 2012-ci ilin nəşridir (Bakı, "Elm və təhsil”, 2012, 800 s.). Elmi redaktoru, akademik Vasim Məmmədəliyev, AMEA-nın müxbir üzvü Cəfər Qiyasidir.

Kitab müasir Azərbaycan dəzgah rəssamlığı haqqındadır. Üç mərhələsi göstərilib: qaya rəssamlığı, miniatür sənəti və kitab rəssamlığı; milli freskalar və divar rəssamlığı...

El bayramları, milli rəqslər, aşıq sənəti, xalq oyunları, tamaşaları, meydan teatrları, xalça və tikmə sənəti, milli geyim mədəniyyəti tədqiqata cəlb edilib. Salnamələr, ədəbi qaynaqlar, zəngin arxiv materialları müstəvisində. Orta əsrlərin ərəb, fars

və türkdilli mərkəzlərindən, Avropa və Şərq səyyahlarının əsərlərindən istifadə yolu ilə.

Habelə, XIV əsrin Azərbaycan Muğam və İfaçılıq sənətinin zirvəsindən Əbdülqadir Marağayi, muğam və aşıq sənətinin misilsiz ustadı Mirzə Məhəmmədhəsən və Mirzə Bilal, Azərbaycan Musiqili teatr tarixi, opera və operettalarımızdakı qadın rolunun ifaçısı Əhməd Ağdamski Bədəlbəyli, korifey Üzeyir Hacıbəyli, Asəf Zeynallı, Bülbül, Fatma Muxtarovanın yolları izlənilib.

Akademikin "Sabirin saatı” elmi-publisistik kitabı (Bakı, "Elm və təhsil”, 2012) M.Ə.Sabirin 150 illiyinə həsr edilmiş nəşrdir. Nizami Muzeyinin nəşridir. Kitabda Sabir ömrü saatın – vaxtın axarından keçirilib, rəngləri, şəkilləri, sözləri və monumentallığı ilə. Sabirin heykəli mislində.

Akademik Rafael Hüseynov Azərbaycan xanımı Məhsəti Gəncəvini demək olar ki, dünyanın yarısı qədər tanıdıb. Şərq ölkələri, habelə, Qərbdə... Məsələn, Məhsəti Gəncəvi kitabları rus, türk, hind, çin, yapon, koreya, fransız, ingilis və başqa dillərdə dünya mədəniyyəti, ədəbiyyatı ilə danışıb, ünsiyyət bağlayıb. Tədris auditoriyalarına ayaq götürüb, tədris olunub. Azərbaycanı, türk-Azərbaycan-müsəlman mədəniyyəti və şəxsiyyətlərini tanıdıb. Məsələn, türk dilində "Mehseti Gəncəvi” (Edebi portre, Bakü, Şərq-Qərb yayın evi, 2013, 100 s.; Məhsəti Gəncəvi (portret-oçerk) "Şərq-Qərb”, 1913, hind dilində, ərəb, çin, koreya dillərində. Şərq-Qərb, 2013, "Est-Onest” nəşriyyatı, 2013, fransız dilində.

“Məhsəti Gəncəvi nəğmələri” şairənin rübailəri haqqındadır. Farscadan tərcümə akademik Rafael Hüseynovun, bəstə Rizvan Sədirxanovundur. Ön söz də – "Gözəl Məhsətinin yeni qayıdışı” akademikindir. Musiqi redaktoru isə Kamilla Sədirxanovadır.

## *Ədəbiyyat siyahısı*

### *Əsərləri*

Məhsəti Gəncəvi-özü, sözü, izi. - Bakı : Nurlan, 2005. - 560 s. : rəngli şək.

Söz tək gözəl. - Məhsəti : monoqrafiya. - Bakı : Şərq-Qərb, 2013. - 560 s.

Məshəti Gəncəvi nəğmələri: Məhsəti Gəncəvi rübailəri Rafael Hüseynovun farscadan tərcümələrində və Rizvan Sədirxanovun bəstələrində / ön söz R. Hüseynov. - Bakı : Şərq-Qərb, 2013. - 73 s. : rəngli. ill. - Azərbaycan, rus və ingilis dillərində. - Kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Məhsəti Gəncəvinin 900 illik yubileyinin keçirilməsi haqqında 16 yanvar 2013-cü il tarixli Sərəncamına əsasən nəşr olunur. - (qalın cildli).

Məhsəti Gəncəvi: portret-oçerk. - Bakı : Şərq-Qərb, 2013. - 80 s. - Kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Məhsəti Gəncəvinin 900 illik yubileyinin keçirilməsi haqqında 16 yanvar 2013-cü il tarixli Sərəncamına əsasən nəşr olunur. - Kitab Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində hazırlanmışdır. - Frontispisdə verilmiş Məhsəti Gəncəvinin portretinin müəllifi rəssam Güllü Mustafayevadır.

### *Kiril qrafikası ilə*

Məhsəti - necə varsa. - Bakı : Yazıçı, 1989. - 336 s.

Vaxtdan uca. - Bakı : İşıq, 1988. - 363 s. : il., foto

*Dövri mətbuatda*

Abbasqulu ağa Bakıxanov gəmisinin əbədi səfəri : Abbasqulu ağa Bakıxanov - 225 // Xalq qəzeti. - 2019. - 20 iyun. - № 131. - S. 8.

Bir şeir misrası kimi : [Aida İmanquliyeva haqqında] // Xalq qəzeti. - 2018. - 10 oktyabr. - № 227. - S. 7.

Bir yol, üç ömür : Bəkir müəllimin xatirəsinə // Kaspi. - 2018. - 8 sentyabr. - № 147. - S. 12.

Böyük Rəşidin yeni qayıdışı // Ədəbiyyat qəzeti. - 2018. - 29 sentyabr. - № 36. - S. 12-13 ; Respublika. - 2018. - 23 sentyabr. - № 212. - S. 7.

Qan : şeir : göyqurşağı (sələflər) // Ədəbiyyat qəzeti. - 2018. - 14 iyul. - № 27. - S. 21.

Qarası çox son foto : [fotojurnalist Hüseyn Hüseynzadənin vəfatı münasibətilə] // Mədəniyyət. - 2019. - 17 iyul. - № 51. - S. 6.

40 il və 1 gecə // 525-ci qəzet. - 2018. - 3 noyabr. - № 194. - S. 10-11 ; 14.

Məkansız və zamansız // 525-ci qəzet. - 2019. - 26 yanvar. - № 17. - S. 8.

Mən əbədi hürriyyətin parlar-sönər şöləsiyəm : Rafael Hüseynovun Hüseyn Cavidin "İblis" əsərinin Monteneqro dilində nəşrinin təqdimatı mərasimində çıxışı // Ədəbiyyat qəzeti. - 2019. - 26 oktyabr. - № 37. - S. 4-5.

Nəsimi "Muğamatam!" deyə bilmək haqqı // 525-ci qəzet. - 2019. - 2 mart. - № 42. - S. 16-17.

Nəsimi şeirində "pərdə" və pərdənin ardındakılar // 525-ci qəzet. - 2019. - 9 fevral. - № 27. - S. 16-17.

Nəsiminin cavabı və cavabsız sualları // 525-ci qəzet. - 2019. - 16 fevral. - № 32. - S. 16-17.

Ondan eşitməyi arzuladığım etiraf : Akif İslamzadənin 70 yaşına // Kaspi. - 2018. - 11 avqust. - № 139. - S. 10-11.

Onu hamı ilə danışdırmaq arzusu : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 10.

Onun ürəyinin iri gözləri ya bizim kəndli Vaqif Əlixanlı // 525-ci qəzet. - 2018. - 20 oktyabr. - № 184. - S. 18-20.

Prezident andı // Xalq qəzeti. - 2019. - 18 aprel. - № 83. - S. 1, 3.

Prezident İlham Əliyev bu gün sadəcə Əsrin müqaviləsini yox, əsrlərin, minillərin müqaviləsini imzalayır // Xalq qəzeti. - 2017. - 19 sentyabr. - № 203. - S. 3.

Şərəfə layiq : [Kinematoqraf Vaqif Mustafayev haqqında] // 525-ci qəzet. - 2018. - 1 sentyabr. - № 149. - S. 10-11.

Yaşa, yaşa, çox yaşa : Azərbaycan jurnalı 95 yaşına qədəm qoyur // Azərbaycan : jurnal. - 2017. - № 1. - S. 3-6.

***Haqqında***

**Akademik Rafael Hüseynovun** " Böyük yolun həqiqəti" kitabı çapdan çıxıb // Yeni Azərbaycan. - 2020. - 12 avqust. - № 136. - S. 4.

**Əsgərli Ə.** Düşüncə kübarlığı və kitab-heykəllər // Kaspi. - 2019. - 28 sentyabr. - № 178. - S. 12-13.

**Rəfiyeva A.** Vaxtdan uca : [ictimai xadim, görkəmli ədəbiyyatşünas, yazıçı Rafael Hüseynovun yaradıcılığı haqqında] // Azərbaycan. - 2017. - № 11. - S. 188-190

**Vaxtdan yüksəkdə dayanan qələm adamı – Rafael Hüseynov**

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.

Sifariş: 46
Çapa imzalanmışdır: 19.10.2020
Tirajı:100
Pulsuz